**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

**№**035/529

**Bakı şəhəri** "02" iyun **2026-cı il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 14.05.2026-cı il tarixli rəsmi məlumatına əsasən, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Kaliforniya (California), Corciya (Georgia), Vermont (Vermont), Nyu-York (New York), Texas (Texas), Missuri (Missouri), Delaver (Delaware) və Nyu-Cersi (New Jersey) ştatlarında qeydə alınmış **yüksək patogen quş qripi** (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan ölkənin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkənin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, YPQQ xəstəliyinin baş verməsinə görə sözügedən ölkənin qeyd olunan inzibati ərazi vahidlərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 25.08.2025-ci il tarixli 051/457 nömrəli qərarla ABŞ-ın Kaliforniya ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 17.11.2025-ci il tarixli 067/473 nömrəli qərarla ABŞ-ın Corciya ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 12.01.2026-cı il tarixli 003/497 nömrəli qərarla ABŞ-ın Vermont ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 19.01.2026-cı il tarixli 005/499 nömrəli qərarla ABŞ-ın Nyu-York və Texas ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 26.01.2026-cı il tarixli 007/501 nömrəli qərarla ABŞ-ın Missuri ştatına tətbiq edilmiş məhdudiyyət;

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
02.06.2026

**1.6.** 02.02.2026-cı il tarixli 011/505 nömrəli qərarla ABŞ-ın Delaver ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 16.02.2026-cı il tarixli 014/508 nömrəli qərarla ABŞ-ın Nyu-Cersi ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi bu qərarın 1-ci bəndində qeyd olunan yoluxucu heyvan xəstəliyi üzrə adıçəkilən ölkənin müvafiq inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması barədə, həmin ərazilərdən baytarlıq nəzarətində olan malların Azərbaycan Respublikasına idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K

02.06.2026